BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Humanitar elmlər seriyası 2010

# MDB DÖVLƏTLƏRİNDƏ MİQRASİYA BÖHRANINA DAİR

**U.M.PAŞAYEVA**
***Bakı Dövlət Universiteti***
***star.miri@mail.ru***

*Müasir dövrdə əhali problemləri arasında miqrasiya problemi mühüm yer tutur. SSRİ dağıldıqdan sonra, müttəfiq respublikalar arasında mövcud olan miqrasiya axınının daxili prosesdən beynəlxalq prosesə çevrilməsi və bu məsələdə baş verən böhran, problemin dərindən öyrənilməsinin vacibliyini göstərir. Əldə olunan statistik rəqəmlər, eyni zamanda baş verən proseslərin təhlili göstərir ki, MDB ölkələri arasındakı miqrasiyanın tənzimlənməsindəki çatışmazlıqlar, xüsusilə normativ hüquqi aktların vəziyyəti "qeyri-qanuni miqrantlar" anlayışının meydana çıxması ilə nəticələnmişdir.*

MDB ölkələrində ümumi demoqrafik vəziyyətin komponenti olan miqrasiya son 20 ildə çox böyük dəyişikliklərə məruz qalmışdır. SSRİ dağıldıqdan sonra müttəfiq respublikalar arasında çoxdan mövcud olan miqrasiya axını daxili prosesdən beynəlxalq prosesə çevrilmişdir. Əvvəlki miqrasiya mübadiləsi sistemi dağılmış, yeni sabit və legitim sistem isə hələ formalaşmamışdır. Miqrasiya axınının yeni şəraitə uyğunlaşması çox ağrılı keçir ki, bu da MDB dövlətlərində miqrasiya böhranından danışmağa əsas verir (1, 176-179). Müasir dövrdə keçmiş sovet məkanında baş verən miqrasiya prosesləri nə MDB dövlətlərinin dövlətin real iqtisadi, demoqrafik tələblərinə və maraqlarına, nə də bilavasitə və ya dolayı yolla bu ölkələr arasında miqrasiya mübadiləsinə cəlb edilmiş milyonlarla insanın tələb və maraqlarına cavab verir.

Lakin keçmiş SSRİ məkanında miqrasiya sahəsində böhranlı vəziyyətin yeni bir hadisə olmasını güman etmək tamamilə səhv olardı. Hələ 1980-ci illərdə, zəif şəkildə olsa belə bu cür hallar özünü göstərməkdə idi. O zaman respublikalararası miqrasiya prosesləri SSRİ-nin daxilində müxtəlif regionlar arasında əsaslı iqtisadi və demoqrafik fərqlərin olduğunu göstərirdi və bir qayda olaraq, bu, zəif inkişaf etmiş ərazilərdən daha çox inkişaf etmiş və urbanizasiyalaşmış respublikalara tərəf yönəlmişdi. Bu dövrdə müsbət netto-miqrasiyaya yalnız Rusiya, Ukrayna və Baltikyanı respublikalar – Estoniya, Latviya, Litva malik idi. Bütövlükdə, bu şəkildə miqrasiya axını müsbət qarşılanırdı, çünki hesab edilirdi ki, bu, əhalinin SSRİ-nin sıx məskunlaşmış ərazilərindən az məskunlaşmış ərazilərə yerləşdirilməsinə təkan verir.

Əslində, vəziyyət daha mürəkkəb idi. Belə ki, işçi qüvvəsinin daha çox olduğu Mərkəzi Asiya və qismən Cənubi Qafqazda demoqrafik partlayışa əsasən yerli əhali deyil, nisbətən daha yaxşı təhsil almış və iqtisadiyyatın daha müasir sektorlarında məşğul olan avropalılar (ruslar, ukraynalılar və s.) məruz qalırdı. Bu cür miqrasiya SSRİ-nin «cənubu» ilə «şimalı» arasında demoqrafik uyğunsuzluğun zəif-

lədilməsinə heç bir təsir göstərmir, ölkənin bir çox cənub bölgələrinin böyük ehtiyac duyduğu müasirləşmə prosesini çətinləşdirirdi (cədvəl 1).

**Cədvəl 1**

**Rusiyanın MDB və Baltikyanı ölkələrlə miqrasiya mübadiləsi (ölkəyə gələn və ölkədən çıxanlar)**

| İllər | Miqrasiyanın əmsalı (10000 nəfərə ) | | | 100 nəfər gələndən çıxıb gedənlər |
|---|---|---|---|---|
| | **İmiqrasiya** | **Emiqrasiya** | **Netto-miqrasiya** | |
| **1980** | 63 | 56 | 7 | 89 |
| **1989** | 58 | 47 | 11 | 81 |
| **1998** | 34 | 9 | 25 | 26 |
| **1999** | 25 | 9 | 16 | 35 |
| **2000** | 24 | 6 | 18 | 24 |
| **2001** | 13 | 4,5 | 8 | 34 |

**Mənbə:** Основные направления развития Содружества Независимых Государств в социально-трудовой сфере/ Аналитический вестник Совета Федерации ФС РФ. -2003. -№ 10 (203)// 2.

1990-cı illərdə bu vəziyyət kəskin şəkildə pisləşmiş, miqrasiya axınının istiqaməti daha da məhdudlaşmışdı. Azərbaycanda isə Ermənistandan öz dədə-baba torpaqlarında yaşayan azərbaycanlıların qovulması, eyni zamanda Özbəkistandan qovulmuş mesxet türklərinin ölkəmizə pənah gətirməsi və Dağlıq Qarabağda ermənilərin törətdikləri vəhşiliklər nəticəsində öz evlərini tərk etmək məcburiyyətində qalmış köçkünlərin hesabına məcburi miqrantların sayı təxminən 1 mln. olmuşdur. SSRİ-nin Rusiya, Ukrayna, Belorus və Ermənistandan başqa, bütün keçmiş respublikalarında netto-miqrasiya mənfi hala çevrilmiş, tezliklə Ukrayna və Ermənistanda da miqrasiya artımı tamamilə sıfıra enmiş və yalnız Rusiya və Belorusda qalmışdı. Həm də MDB-nin digər dövlətlərindən miqrasiyada, qəbul edən ölkə kimi Rusiyanın rolu daha da artmışdı (cədvəl 2).

**Cədvəl 2**

**1989 və 2000-ci illərdə MDB daxilində miqrasiya axınının bölüşdürülməsində Rusiyanın rolu (%-lə)**

| Çıxış ölkə | 1989 | 2000 |
|---|---|---|
| Ukrayna | 80,6 | 86,9 |
| Belorus | 70,8 | 78,9 |
| Moldova | 57,6 | 70,2 |
| Azərbaycan | 61,6 | 88,2 |
| Ermənistan | 21,3 | 80,1 |
| Gürcüstan | 65,8 | 94,0 |
| Qazaxıstan | 73,5 | 93,1 |
| Qırğızıstan | 55,2 | 84,1 |
| Tacikistan | 55,0 | 84,1 |
| Türkmənistan | 53,8 | 69,9 |
| Özbəkistan | 50,2 | 78,1 |

**Mənbə:** www.polit.ru/research/2005/04/13/demoscope197.html// 3.

1989-2000-ci illər arasında immiqrant axını Belorusa 4 dəfə, Qazaxıstana 5 dəfədən çox, Ukrayna, Gürcüstan, Qırğızıstan və Tacikistana 10 dəfə, digər ölkələrə isə daha çox azalmışdı: «MDB dövlətlərinin əksəriyyəti immiqrantlar üçün qətiyyən cəlbedici deyil ki, bu da böhranın əlamətidir» (1, 180-182). Miqrasiya böhranı, xüsusilə miqrasiyanın müxtəlif növlərinin nisbətində özünü göstərmişdir. 1980-ci illərin sonlarına kimi keçmiş sovet respublikaları arasında iqtisadi və təhsil miqrasiyası, həmçinin şəxsi səbəblərə (nikah və s.) görə miqrasiya üstünlük təşkil edirdi.

1990-cı illər keçmiş SSRİ məkanında müxtəlif, çox vaxt düzgün müəyyənləşdirilməmiş kateqoriyalı (qaçqınlar, sığınacaq axtaranlar, əvvəllər deportasiya edilmiş xalqların nümayəndələri, ekoloji miqrantlar və s.) miqrantların meydana gəlməsi ilə səciyyələnir. Sosial-siyasi gərginliyin yüksək olduğu dövrlər üçün səciyyəvi olan belə məcburi miqrasiya fonunda «normal» miqrasiya böhranı bir müddət kölgədə qalsa da, artmaqda davam etmişdir.

MDB dövlətləri arasında miqrasiya mübadiləsini bütün dövlətlərin–miqrasiya partnyorlarının (onların miqrasiya donoru və ya resipiyent kimi çıxış etmələrindən asılı olmayaraq) obyektiv maraqlarına cavab verən təbii hal kimi nəzərdən keçirmək üçün iqtisadi və demoqrafik əsaslar mövcuddur. Ancaq keçmiş sovet məkanında miqrasiyanın baş verdiyi real şərait bu obyektiv maraqlara qətiyyən uyğun gəlmir. Miqrasiyanın faktik axınının lazım olmayan istiqamətdə özünə kortəbii yol açdığı bir zamanda miqrasiya proseslərinin siyasi və hüquqi cəhətdən tənzim olunmaması çox vaxt sosial və hətta siyasi gərginliyə səbəb olur ki, bu da böhranın artmaqda olduğunu göstərir. Bu böhranın ən qabarıq təzahürlərindən biri MDB dövlətləri arasında qeydiyyatlı miqrasiyanın sürətlə azalması, eyni zamanda tənzimlənməmiş hüquqi statuslu olan miqrantların yaranması olmuşdur.

II Dünya müharibəsindən sonrakı onilliklər ərzində MDB dövlətləri – o zaman SSRİ respublikaları arasında miqrasiya yerdəyişmələri kifayət qədər intensiv olmuşdur. Əsrin son onilliyində isə MDB dövlətləri arasında qeydiyyata alınmış miqrantların sayı kəskin şəkildə azalmışdır. 1989-cu ildə qeydiyyata əsasən müəyyənləşdirilmiş miqrasiyanın miqdarı (hərbi xidmətçilərin və məhbusların miqrasiyası nəzərə alınmadan) 2 mln. olmuşdur. 1992-ci ildən sonra MDB-də dövlətlərarası miqrasiyanın həcmi durmadan azalmış və 2000-ci ildə cəmi 480 min nəfər olmuşdur. Bu isə 1989-cu ilin səviyyəsinin dörddə birinə bərabərdir.

Bütün ölkələrdə MDB dövlətləri arasında qeydiyyata alınan miqrasiyanın həcminin azalması həm emiqrasiya, həm də immiqrasiyanın azalması hesabına baş vermişdir. Lakin bu iki komponent müxtəlif şəkildə dəyişdiyinə görə, təmiz miqrasiyanın həcmi arta da bilərdi. Belə ki, Rusiyada 1989-2000-ci illər arasında miqrasiya axınının xeyli azalması nəticəsində 2000-ci ildə netto-miqrasiya 1989-cu ilə nisbətən iki dəfə çox olmuşdur. Ukraynada isə əksinə, MDB dövlətləri arasında 1989-cu ildə müsbət olan və tam həcminə görə Rusiyadan o qədər də geri qalmayan netto-miqrasiya 2000-ci ildə mənfi olmuşdur, halbuki Ukraynadan bu ölkələrə gediş 3,5 dəfə azalmışdır (cədvəl 3).

**Cədvəl 3**

**MDB dövlətləri arasında miqrasiya axını (min nəfər)**

| Dövlətlər | 1989 | | | 2000 | | |
|---|---|---|---|---|---|---|
| | İmiqrasiya | Emiqrasiya | Netto-miqrasiya | İmiqrasiya | Emiqrasiya | Netto-miqrasiya |
| Rusiya | 824,8 | 695,3 | 129,4 | 346,8 | 82,6 | 264,2 |
| Ukrayna | 469,8 | 373,8 | 96 | 49,3 | 82 | -32,7 |
| Belorus | 101,3 | 78,8 | 22,5 | 23,5 | 12,8 | 10,7 |
| Moldova | 53,3 | 63,2 | -9,9 | 4 | 16,6 | -12,6 |
| Azərbaycan | 120,7 | 123,5 | -22,8 | 4,23 | 16,4 | -12,2 |
| Ermənistan | 38,4 | 105,4 | -67 | 1,6 | 17,5 | -15,9 |
| Gürcüstan | 22,7 | 47,8 | -25,1 | 2,3 | 21,5 | -19,2 |
| Qırğızıstan | 43,4 | 43,5 | -0,1 | 5,3 | 18,1 | -12,8 |
| Tacikistan | 23,4 | 34,6 | -11,2 | 2 | 13,1 | -11,1 |
| Türkmənistan | 24,6 | 28,8 | -4,2 | 1,15 | 9,9 | -8,7 |
| Özbəkistan | 79,8 | 167,6 | -87,8 | 5 | 52,4 | -47,4 |
| Qazaxıstan | 176 | 216,2 | -40,2 | 31,6 | 133,4 | -101,8 |
| Cəmi | 1978,3 | | +-248 | 476,7 | | +-275 |

**Mənbə**:Население России 2001. М., 2002// (5, с.168).

Göstərilən məlumatlar qeydiyyata alınan miqrasiyaya aiddir, ancaq qeydiyyata alınmayan miqrasiya da var ki, bunun böyük hissəsi qeyri-qanuni yolla, yəni sərhədləri qanunsuz keçmə və ya ölkədə yaşama qaydalarını pozmaqla baş verir. Qeyri-qanuni miqrasiya 1990-cı illərin ikinci yarısından daha çox nəzərə çarpır. Onun səbəbləri müxtəlifdir – miqrasiyanı tənzimləyən normativ bazanın mükəmməl olmaması, ona nəzarət edən institutların inkişaf etməməsi və qeydiyyat sisteminin qeyri-mükəmməlliyindən tutmuş miqrantların özlərinin və ya miqrasiyaya nəzarət edən leqal və qeyri-leqal strukturların bilavasitə və ya dolayı yolla qanunun pozulmasında maraqlı olması və s. Bir çox hallarda söhbət əmək və ya vergi qanunvericiliyindən yayınma nəticəsində əldə olunan gəlirlərdən gedir. Qeyd edək ki, qeydiyyatdan yayınmanın kriminal səbəbləri də mövcuddur.

Beləliklə, məlum səbəblərə görə, qeyri-qanuni miqrantların dəqiq sayı məlum deyil. 2000-ci ildə rəsmi statistikaya əsasən qeyd etmək lazımdır ki, Azərbaycandan gedənlərun sayı 9947 min nəfər olmuşdur. Keçən illər ərzində bu rəqəm azalmış və 2006-cı ildə 2644 min nəfər təşkil etmişdir. Bu gedənlərin böyük əksəriyyəti Rusiya Federasiyasına miqrasiya etmişdir. Məsələn: 2006-cı ildə gedən 2644 min nəfərdən 2160 min nəfəri Rusiya Federasiyasına miqrasiya etmişdir. Əlbəttə bu rəsmi statistik rəqəmlər əsasında əldə etdiyimiz nəticədir. Bu isə qeyri-qanuni miqrantların sayını göstərməyə imkan vermir (5, 83-85). Lakin bəzi təqribi hesablamalara görə, 2000-ci ildə Belorusda qeyri-qanuni miqrantların sayı 150 min, Ukraynada – 1,6 mln., Rusiya Federasiyasında 1,3-1,5 mln., Qazaxıstanda – 200 min, Özbəkistanda – 30 min, Tacikistanda – 20 min nəfər olmuşdur (6, 37). Ancaq daha yüksək rəqəmlər də mövcuddur. Bir qayda olaraq, onların alınması metodikası məlum deyil, rəqəmlərin

özləri isə çox geniş diapazonda tərəddüd edir. Belə ki, 2001-ci ilin sonu–2002-ci ilin əvvəllərində Rusiyada rəsmi şəxslərin verdikləri bu rəqəmlər 1,5-dən 15 milyon nəfərədək dəyişirdi. Bu isə çox böyük fərqdir. 2007-2008-ci illərdə Rusiya Federasiyasında miqrasiyanın vəziyyətinə dair statistik rəqəmlər MDB ölkələrindən Rusiyaya miqrasiya axınının azalmadığını göstərir. Rəsmi statistik məlumatlara görə, bu rəqəm 2007-ci ildə 242543 nəfər, 2008-ci ildə 243863 nəfər təşkil etmişdir (cədvəl 4).

**Cədvəl 4**

**2007-2008-ci illlərdə Rusiyada miqrasiyanın vəziyyəti ( min nəfər)**

| | 2007 | | | 2008 | | |
|---|---|---|---|---|---|---|
| | Gələnlərin sayı | Çıxıb gedənlərin sayı | Miqrasiya artımı (+), azalma (-) | Gələnlərin sayı | Çıxıb gedənlərin sayı | Miqrasiya artımı (+), azalma (-) |
| Belorus | 6030 | 5302 | +728 | 5864 | 3954 | +1910 |
| Qazaxıstan | 40258 | 10211 | +30047 | 39965 | 7483 | +32482 |
| Moldova | 14090 | 629 | +13461 | 15520 | 551 | +14969 |
| Ukrayna | 51492 | 10536 | +40956 | 49065 | 8941 | +40124 |
| Azərbaycan | 20968 | 1355 | +19613 | 23331 | 1258 | +22073 |
| Ermənistan | 30751 | 728 | +30023 | 35216 | 1032 | +34184 |
| Gürcüstan | 10595 | 603 | +9992 | 8806 | 572 | +8234 |
| Qırğızıstan | 24731 | 668 | +24063 | 24014 | 648 | +23366 |
| Tacikistan | 17309 | 464 | +16845 | 20718 | 637 | +20081 |
| Türkmənistan | 4846 | 111 | +4735 | 3962 | 90 | +3872 |
| Özbəkistan | 52802 | 722 | +52080 | 43516 | 948 | +42568 |
| **O cümlədən: MDB-nin iştirakçı dövlətləri** | **273872** | **31329** | **+242543** | **269977** | **26114** | **+243863** |

**Mənbə:** Сотрудничество в сфере трудовой миграции – приоритетное направление взаимодействия государств-участников в рамках СНГ,2007: http:// **www.cis.min.by//**http:// **www.cis.min.by//** 8,11

Görünür, qeydiyyata alınmayan, o cümlədən qeyri-qanuni miqrasiya MDB dövlətlərində get-gedə daha çox yayılır, onun hüdudları isə qeydiyyata alınanlardan daha genişdir. Belə miqrantların xeyli hissəsinin, bəlkə də daha çox hissəsinin tənzimlənməmiş hüquqi statusa malik olması faktı miqrasiya böhranının olmasını sübut edir.

Nəzərə almaq lazımdır ki, MDB ərazisində xarici miqrasiyanın ümumi həcmində SSRİ-nin keçmiş respublikaları arasında axın üstünlük təşkil etsə də, böhran hallarının bir çoxu postsovet məkanı hüdudlarından kənarda yerləşən ölkələrlə miqrasiya mübadiləsi ilə də bağlıdır.

Yeni müstəqil dövlətlər yarandıqdan sonra Birliyin bütün ölkələrində MDB hüdudlarından kənarda yeni miqrasiya partnyorları meydana gəlmişdir. Lakin bu, keçmiş SSRİ-dən böyük emiqrant axını ilə nəticələnmədi. Belə ki, 1990-cı illərin birinci yarısında emiqrant axını ancaq bəzi etnik qrupların, daha doğrusu, alman və yəhudilərin emiqrasiyası ilə şərtlənirdi. Sonra dürüst emiqrasiyanın ümumi həcmində bu iki qrupun payı azalmağa başlamışdı. Rusiyada bu, iki dəfə azalmış – 1993-cü il 70% təşkil etdiyi halda 2002-ci ildə 37%-ə enmişdir. Eyni zamanda dürüst, hər halda, qeydiyyata alınan emiqrasiyanın mütləq ölçüsü də azalmışdı. Əgər 1991-1995-ci

illərdə bu, bütövlükdə MDB üzrə ildə təqribən 300 min nəfər idisə, 1998-2000-ci illərdə təqribən 200 min nəfər olmuşdur (8, 169-170). Bununla yanaşı mühacirətin spesifik etnik xarakteri də itirdi: Rusiyada mühacirlərin sayına görə birinci yerə ruslar, Ukraynada ukraynalılar çıxmışdı.

Əgər yalnız qeydiyyatlı miqrasiyadan danışsaq, qeyd etmək lazımdır ki, MDB ölkələrindən kənara emiqrasiyada keçmiş sovet respublikalarından Rusiya fərqlənir. 2000-ci ildə burada belə emiqrasiya MDB dövlətlərinə mühacirətə nisbətdə 75% olmuş, 2002-ci ildə isə demək olar ki, MDB üzrə və MDB-dən kənara miqrasiya eyni səviyyədə idi (1, 185).

MDB dövlətlərinin vətəndaşlarının gəlişi və gedişini tənzimləyən qanunvericiliyin liberallaşdırılması kütləvi beynəlxalq turizm, o cümlədən ticarət, işgüzar səfərlər və s. üçün imkanlar yaratmışdır ki, bu da yerdəyişmə sərbəstliyinin genişlənməsinin müsbət nəticələrinə aiddir. Lakin emiqrasiya-immiqrasiya qanunvericiliyinin liberallaşdırılması bir sıra neqativ halların da yaranmasına səbəb olmuşdur. Adətən buna «ağıl axını» aid edilir. Yüksək ixtisaslı mütəxəssislərin, xüsusən də tədqiqatçıların, alimlərin Qərbə mühacirət etməsi faktı həqiqətən mövcuddur. Ancaq ola bilsin ki, bunun nəticələri həddindən çox dramatikləşdirilir. Çünki elm və müəllim kadrlarının beynəlxalq mübadiləsi bütün dünyada mövcuddur. MDB ölkələrində bu uzun illər boyu davam etmiş beynəlxalq elmi birlikdən təcridolunmanı aradan qaldırmağa, elmi məktəblər arasında «körpü yaradılmasına», təcrübə mübadiləsinə və s. təsir edir. Əlbəttə belə mühacirət elmin və ali məktəbin kadr təminatına müəyyən ziyan vurur, ancaq elm və təhsil «ağıl axını»nın ölkədən kənara çıxmadığı halda belə iqtisadiyyatın digər sahələrinə (biznes, menecment və s.) yönəlməsindən ziyan çəkir. Mərkəzi Asiya ölkələrindən «ağıl axını» yüksəkixtisaslı kadrların Rusiya, Ukrayna və digər MDB dövlətlərinə getməsi ilə bağlıdır, ancaq bu, Birliyin hüdudlarından kənardakı ölkələrlə miqrasiya mübadiləsi ilə əlaqədar deyil. MDB-nin xarici sərhədləri ilə müxtəlif qeyri-qanuni və qanuna zidd miqrasiya axınının yaranmasının mənfi nəticələri aşkardır. Bunlara birliyin əslində Qərbə keçmək üçün istifadə edən, həmçinin MDB dövlətlərindən birində qalmağa çalışan tranzit miqrant (mühacir) axını aiddir. Bundan əlavə, insan alveri, quldur və ya terrorist qruplarının və s. yerdəyişməsi ilə əlaqədar olan aşkar kriminal axınlar da mövcuddur.

Lakin hər halda bütün bu vəziyyətlərdə miqrasiyanın marginal formalarından söhbət gedir. Onların yaratdıqları axın daimi yaşayış yerini dəyişmək, ticarət, turizm və s. məqsədlərlə MDB-nin xarici sərhədlərini qanuni yolla keçən kütləvi insan axını ilə müqayisəyə gəlmir.

## ƏDƏBİYYAT


1. Зайончковская Ж. Миграционные тренды в СНГ: итоги десятилетия // Миграция в СНГ и Балтии: через различия проблем к общему информационному пространству / «Население России». М.: Адамантъ, 2001, 300 с.
2. World Population Prospects: The 2008 Revision, Highlights.-New York, 2009. - http: // www.un.org/esa/population/publications/wpp2008/WPP2008_Highlights_rev.pdf

3.http://www.budgetrf.ru/Publications/Magazines/VestnikSF/2003/vestniksf203-10/excel/ vestniksf 203-10320.xls

5. Население России 2001. Десятый ежегодный демографический доклад. М.: КДУ, 2002, 250 с.
6. Azərbaycanın Statistik Göstəriciləri. Bakı: Səda, 2007, 728 s.

7. Тенденции в области миграции в странах Восточной Европы и Центральной Азии. Обзор за 2001-2002 годы / МОМ, 2002:, 200 стр.
8. www.polit.ru/research/2005/04/13/demoscope197.html //
9. Население России 2002. Десятый ежегодный демографический доклад. М.: КДУ, 2004,250 с.
11. Сотрудничество в сфере трудовой миграции – приоритетное направление взаимодействия государств-участников в рамках СНГ,2007: http:// www.cis.min.by//

## К ВОПРОСУ МИГРАЦИОННОГО КРИЗИСА В СТРАНАХ СНГ

**У.М.ПАШАЕВА**

**РЕЗЮМЕ**

На современном этапе среди проблем изучения населения проблема миграции занимает особое место.

После распада СССР, межреспубликанская миграция преобразовалась в международную миграцию населения независимых государств, что обусловило необходимость глубокого изучения данной проблемы в условиях обострения кризиса. На основе статистических материалов, а также анализа происходящих процессов можно прийти к выводу, что отсутствие надлежащей правовой базы регулирующих миграцию привело к росту незаконной миграции среди населения стран-участниц СНГ.

## THE QUESTION OF MIGRATION CRISIS İN CIS COUNTRIES

**U.M.PASHAYEVA**

**SUMMARY**

Among the problems of studying population, the migration problem is of great importance at the contemporary stage.

After USSR collapsed, inter-republican migration transformed into the international migration of the population of independent states, which stipulated the comprehend study of the problem. Basing on statistical resources as well as the analysis of the processes it can be concluded that the lack of proper law base regulating migration increased the growth of illegal migration among CIS countries.